# UĞURLU FƏALİYYƏTİN TƏMƏLİ ÖTƏN İL QOYULMUŞDUR



Ölkəmizdə son illərdə dünyadakı gərginliklərə baxmayaraq, bütün istiqamətlərdə misli görünməyən quruculuq işləri aparılır. İqtisadiyyatımızın inkişaf tempi qabaqcıl ölkələri belə üstələməkdədir. Dövlət büdcəmiz ildən-ilə artır. Müstəqil respublikamızın iqtisadi və müdafiə qüdrəti gündən-günə güclənir. İllər keçdikcə neft strategiyamız artıq reallığı ilə yeni erasına qədəm qoyur. Sosial-iqtisadi inkişaf proqramı, nəhəng layihələr böyük müvəffəqiyyətlə həyata keçir. Əhalinin, neftçilərin gün-güzəranı, maddi rifah halı yaxşılaşaraq yoxsulluğun ləğvinə doğru inkişaf edir. Bu işdə də neft amili başlıca rol oynayır. Yəni əsas məsuliyyət şərəfli peşə sahibləri olan neftçilərin üzərinə düşür. Təqdirəlayiq haldır ki, bu məsuliyyəti duyan "qara qızıl" ustaları da onlara bəslənilən ümidləri həmişə doğruldaraq vəzifələrini layiqincə yerinə yetirirlər. Neft uğrunda mübarizənin önündə gedən kollektivlərdən biri də "Abşeronneft" NQÇİ-dir. Kollektiv artıq zəfərlə dolu bir ili də arxada qoymuşdur. Və məhz bu il arxada qalsa da, başlanğıca möhkəm təməl olmuşdur. Deyilənlərə əmin olmaq üçün 2014-cü ilin texniki-iqtisadi göstəricisinə nəzər salmaq kifayətdir.

Ötən ildə "Abşeronneft" NQÇİ-də nəzərdə tutulan neft hasilatı üzrə tapşırıq 107,4 faiz yerinə yetirilmişdir. Yəni 263400 ton əvəzinə 282977 ton neft çıxarılmışdır. Deyilən müddətdə əlavə 19577 ton artım olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə neft hasilatı 40588 ton, 16,7 faiz artmışdır. 2013-cü ildə neft hasilatı faktiki 242389 ton təşkil etmişdir. 2014-cü ildə orta gündəlik neft hasilatı faktiki 775 tonla dövlətə 259800 ton əvəzinə 279198,2 ton neft təhvil verilmişdir. Tapşırığa 107,5 faiz əməl olunmuşdur. Burada artıq 2013-cü illə müqayisədə 17 faiz artım nəzərə çarpmışdır.

Ötən ildə qaz hasilatına diqqət artırılmış, əlavə xüsusi geoloji-texniki tədbirlər həyata keçirilmişdir. Nəticə isə özünü çox gözlətməmişdir. 44 mln. 200 min kubmetr əvəzinə 47 mln. 720 min kubmetr və plandan əlavə 3 mln. 520 min kubmetr artıq qaz hasil edilmişdir. 2013-cü illə müqayisədə bu göstərici 45 mln. 959 min kubmetr olmuşdur. Bu minvalla hesabat ilində qaz təhvili planına 114,3 faiz əməl edilmiş, dövlətə əlavə 3 mln. 976,6 min kubmetr olmaqla, 31 mln. 776,6 min kubmetr "mavi yanacaq" təhvil verilmişdir.

2015-ci ilin əvvəlinə neftqazçıxarma idarəsi üzrə istismarda olan quyu fondu 537 quyu təşkil etmişdir. O cümlədən, 8 qaz quyusu. Fəaliyyətdə olan quyu fondu 4 qaz quyusu olmaqla 475 olmuşdur. Bu isə istismar fondunun 88,5 faizini təşkil etmişdir. 2014-cü ildə həmçinin fəaliyyətsiz quyu fondunda 48 quyu (3-ü qaz quyusu), mənimsəmədə isə 1 qaz quyusu ilə 14 quyu təşkil etmişdir. Qazmadan istismara isə 33168 ton sәmərə ilə 30 quyu daxil edilmişdir. Keçici fonddan isə qeyd olunan dövrdə 236044 ton neft hasil olunmuşdur. Yəni əlavə 7664 ton "qara qızıl"...

Dərinlik nasosu, qazlift, fontan, erlift, svab üsulları ilə yerin təkindən çıxarılan neftin səmərəliliyini artırmaq, hasilatın stabilliyini qoruyub-saxlamaq üçün 2014-cü ildə idarə üzrə 1036 texniki, 94 geoloji tədbir həyata keçirilmişdir. Texniki tədbirlər 5579,7 geoloji tədbirlər isə 15270 ton əlavə neft çıxarmağa şərait yaratmışdır.

Hesabat ilində təmirçilər də öz işlərinin öhdəsindən bacarıqla gəlmiş, istehsalat tempinin məhsuldarlığını qoruya bilmişlər. Sərəncamda olan quyu fondunda 2430 yeraltı, 216 əsaslı təmir işləri aparılmışdır. Yeraltı təmirdən sonra fond üzrə təmir arası müddət 2013-cü ildə 117,7, 2014-cü ildə 123 gün olmuşdur. Bu zaman qənaətcilik, maya dəyərinin aşağı salınması da özünü büruzə vermişdir.

Əsaslı təmir olunmuş quyulardan il ərzində 27254 ton neft hasil olunmuşdur ki, bu da 2013-cü ilin müvafiq dövrünə nisbətən 240 ton çoxdur. Həmçinin, istehsalata əsaslı vəsait qoyuluşu 2014-cü ildə faktiki 106 mln. 989,6 min manat təşkil etmişdir.

Hər zaman olduğu kimi, ötən ildə də ekoloji sahəyə xüsusi diqqət ayrılmışdır. Təbii sərvətlərdən səmərəli istifadə etməklə ətraf mühitin qorunması önəmli olmuşdur. İdarənin daxili imkanları hesabına neft-qazçıxarma sahələrinin 9 hektara yaxın ərazisi təmizlənib hamarlanaraq abadlaşdırılmışdır. Həmin ərazilərdə dekorativ bitki, gül kolları, ağaclar əkilmiş, neft gölməçələri qurudulmuşdur. Sahələrdə yeraltı, cari təmir zamanı istifadə olunan yeni qapalı yuma qurğuları quraşdırılaraq istifadəyə verilmişdir. İstifadə üçün "Boşşelf" MMC-dən 5,18 kubmetrlik 2 ədəd şlam konteyneri alınmış, 2125 metr neft kollektoru, 920 metr qaz xətti, 1582 metr atqı xətti, sahələr üzə 40 su, 124 ədəd neft nasosları, 219 ədəd müxtəlif ölçülü siyirtmə və ventillər təmir edilmişdir. Ərazidən 508 ton məişət tullantısı daşınmış, "STANDART - 2005" MMC-yə 1,354 ton əlvan metal qırıntısı təhvil verilmişdir. 165 quyu vakuum xəttinə qoşulmuş, 70 quyu hermetikləşdirilmişdir. Sahələrdə 2800 zeytun, 1100 ədəd Eldar şamı ağacları, 100 ədəd mövsümi gül, 224 ədəd dekorativ bitki kolu, 600 adi oleandr kolu, 3000 ədəd primula gülləri əkilmişdir.

Hesabat dövrü ərzində idarənin əməyin təhlükəsizliyi üzrə daim fəaliyyət göstərən komissiyası və əməyin mühafizəsi şöbəsi tərəfindən bütün struktur bölmələrdə əmək şəraiti ilə əlaqədar 238 daxili yoxlama aparılmış, mövcud nöqsan, çatışmazlıqlar müəyyənləşdirilmiş, qısa müddətdə onların aradan qaldırılması üçün AKT – göstərişlər tərtib edilərək cavabdeh ünvanlara çatdırılmışdır. Eyni zamanda bu qəbildən olan 125 yoxlama da aparılmış, ümumilikdə 388 nöqsan, pozuntu da aşkarlanmışdır. Yenə də aşkar olunmuş nöqsanlar hər bir işçilərin, baş mütəxəssislərin, sahə və şöbə rəhbərlərinin iştirakı ilə geniş müzakirə olunmuş, müvafiq tədbirlər görülməsi üçün qərar qəbul olunmuşdur. Yoxlamalar FHN-SİTG və DMNDA, SİİGEM, FHN - Yanğından mühafizə xidməti, TİFQDMXHH tərəfindən də aparılmışdır.

İdarədə təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması, əməyin mühafizəsi üzrə işlərin təşkilində olan çatışmazlıqların aradan qaldırılmasında aparılan iş təcrübəsi mübadiləsini sahə və bölmələrdə tətbiq etmək məqsədi ilə sahə, bölmələr arasında qarşılıqlı yoxlamalar təşkil edilmişdir. Daxili yoxlamanın rəsmiləşdirilmiş yekunları isə yoxlayan sahə rəhbərləri tərəfindən prezentasiya şəklində digər tərəfin, idarənin MTİ-nin iştirakı ilə təqdim olunur. Aşkarlanmış nöqsanlar birgə müzakirə edilir, aradan qaldırılması üçün müvafiq tədbirlər nəzərdən keçirilir. Həmçinin təhlükəsiz iş üsullarının öyrədilməsi, biliklərin artırılması, maariflәndirilmənin gücləndirilməsi məqsədi ilə struktur bölmə rəhbərlərinin, baş mütəxəssislərin iştirakı ilə slayd formasında prezentasiyalar da keçirilmişdir. "Odsöndürücülərdən istifadə edilməsi", "işlərin təhlükəsiz icrası prosedurları", "risqin qiymətləndirilməsi", "təxliyyə", "insident raportu", "ilk yardımın göstərilməsi", "mənim fəaliyyətim", "elektrik təhlükəsizliyi" mövzularında il ərzində 31 belə prezentasiya keçirilmişdir. 184 təlim-məşq isə işçilər arasında "yanğınsöndürmə vasitələrindən istifadə və davranış qaydaları", "xəsarət alana yardım göstərilməsi", "fontana qarşı təlim", "işçilərin təxliyyəsi" mövzularında olmuşdur.

Görülən işlərin qəzasız və yüksək səviyyədə yerinə yetirilməsində kadrların rolunun böyük olduğunu nəzərə alaraq, rəhbər və mühəndis-texniki işçilərin təhlükəsizlik texnikası üzrə biliklərinin artırılması məqsədi ilə hesabat dövründə 197 nəfərin biliyi yoxlanılmışdır.

Dənizdə İnsan Həyatının Mühafizəsi üzrə Təlim Mərkəzində stasionar dəniz platformalarının və üzən qazma qurğularının heyətləri üçün "təhlükəsizlik üzrə tanışlıq, ilkin hazırlıq" kurslarına isə 156 nəfər göndərilmişdir. Bundan başqa, MTİ arasında maariflәndirilmənin gücləndirilməsi məqsədi ilə Təlim-Tədris Sertifikatlaşdırma İdarəsi tərəfindən idarəmizdə Riskin qiymətləndirilməsi və fövqəladə hallar zamanı təhlükəsizliyin təmin edilməsi üzrə təlimatlandırma kursu təşkil olunmuş, buraya 47 mühəndis-texniki işçi cəlb olunmuşdur. Təhlükəsiz iş şəraiti yaratmaq, təhlükəsizlik texnikasının norma və tələblərinə əməl etmək istehsalatda zədəsiz işləmək deməkdir. Bunun üçün isə fəhlə və qulluqçular qayda-qanunları lazımi səviyyədə bilməlidirlər. Bu yerdə yaradılan müasir tələblərə cavab verən əməyin mühafizəsi kabinetinin imkanları kara gəlir və xeyli tədbirlərin mərkəzidir. Məhz bu kabinetin imkanlarından yararlanaraq ən dolğun məlumatlar əldə olunur.

NQÇİ-də həmçinin işçilərin sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində ciddi işlər görülür və bu işlər idarə rəhbərliyinin həmişə diqqət mərkəzində saxlanılır. Bütün sahələrdə, istiqamətlərdə mütəmadi görülən hər bir tapşırıq, yerinə yetirilən qərar, qazanılan uğur, əslində, sabahın təqdirəlayiq məqamının monumental özülünün təməlidir.

Yəqin ki, 2015-ci il də neftçilərimiz üçün təlatümlərə, böhranlara baxmayaraq, uğurlu olacaq.

**Şahmar HÜSEYNOV,**
**"Abşeronneft" NQÇİ-nin rəisi.**